**Bu, Azərbaycan gəncliyinin, Azərbaycan xalqının və Azərbaycan dövlətinin qələbəsidir.**

İlham Əliyev



# Möhtəşəm qələbə

**Dünyanın aparıcı telekanalları və kütləvi informasiya vasitələri Azərbaycanın "Eurovision-2011" mahnı müsabiqəsində qazandığı uğuru belə dəyərləndirir...**

**Nəhayət, neçə vaxtdan bəri sonsuz həyəcan və səbirsizliklə gözlədiyimiz gün gəlib çıxdı. Azərbaycan bütün dünyaya səs salan daha bir möhtəşəm qələbəyə imza atdı!**

Qazanılan uğurun ölkəmiz üçün nə demək olduğunu fikrimizcə "Eurovision- 2011" mahnı müsabiqəsində birinciliyə layiq görülmüş nümayəndələrimizi qəbul edən Respublika Prezitidenti İlham Əliyev tam dəqiq xarakterizə etmişdir: "Bu müsabiqə deyə bilərəm ki, dünyanın ən mötəbər mahnı müsabiqəsidir. Əlbəttə ki, bu, Avropa ölkələrini əhatə edir. Ancaq hesab edirəm ki, dünya miqyasında buna oxşar ikinci müsabiqə yoxdur. Tamaşaçı auditoriyası haradasa 100 milyondan artıq idi. Belə mötəbər yarışda birincilik əldə etmək tarixi qələbədir..."

Bəli, bu uğur mədəniyyət tariximizə qızıl hərflərlə yazıldı.

43 ölkənin yer aldığı mötəbər musiqi yarışmasında Azərbaycan dördüncü dəfə idi ki, iştirak edirdi. "Eurovision-2011"in finalında Azərbaycan təmsilçilərinin qələbəsi bizim hər birimizdə qeyri- adi hisslər yaratdı. Gənc ifaçılar Eldar Qasımov və Nigar Camalın böyük coşqunluqla oxuduqları "Running Scared" ("Geriyə baxmadan qaç") mahnısı könülləri fəth etdi. Səsimiz dünyaya yayıldı.

Azərbaycan ifaçıları Almaniyada çox məharətlə, özlərinə məxsus üslubda sübut etdilər ki, onlar avropalılardan daha güclü, məlahətli və cazibəli şəkildə Avropa musiqisini, mahnısını duymaq və oxumaq iqtidarındadırlar.

İfaçılarımız möhtəşəm səhnə perfomansları ilə 221 bal toplayaraq Azərbaycanı Avropa ölkələri arasında birinci sıraya yüksəltdilər. Azərbaycan ifaçılarının təkrarolunmaz çıxışını yüksək balla qiymətləndirən Avropa ölkələrinin adlarına fikir verəndə heyrətlənməyə bilmirsən. Türkiyə, Rusiya və Malta təmsilçilərimizin çıxışlarını ən yüksək -12 balla qiymətləndirdilər. Ukrayna, Xorvatiya, San-Marino, Rumıniya, Moldova da ifaçılarımızın istedadını layiqincə dəyərləndirərək hər biri 10 balla bu möhtəşəm sıraya qoşuldular.

Kipr, İslandiya, Avstriya, Polşa, Gürcüstan, Albaniya, Portuqaliya, Litva, Bosniya və Herseqovina, Estoniya da ölkəmizə 8 bal verməklə öz məhəbbətlərini, münasibətlərini bildirdilər. Beləliklə, azərbaycanlı gənclərin bu möhtəşəm dueti 30 ölkədən dəstək aldı.

İstərdik, Azərbaycanın səsini dünyaya duyuran təmsilçilərimizlə dəyərli oxucularımız da yaxından tanış olsunlar.

**Eldar Qasımov** 1989-cu ildə Bakıda doğulub. 2001-2005-ci illərdə 2 saylı musiqi məktəbində fortepiano üzrə təhsil alıb. 2008-ci ildə Almaniyada vokalı, aktyor ustalığını və səhnə nitqini öyrənib. 2006-2010-cu illərdə Bakı Slavyan Universitetinin





beynəlxalq əlaqələr və regionşünaslıq fakültəsində təhsil alıb. 2010-cu ildə həmin təhsil ocağının beynəlxalq əlaqələr ixtisası üzrə magistratura pilləsinə qəbul olunub.

**Nigar Camal** 1980-ci ildə Bakıda anadan olub. 1985-1986-cı illərdə uşaq ansamblında solist kimi çıxış edib. 1988-ci ildən "Pöhrə" respublika mahnı müsabiqəsinin iştirakçısı olub. 1996-cı ildə həmin yarışmanın fəxri diplomunu qazanıb. Xəzər Universitetinin iqtisadiyyat və menecment fakültəsini bitirib. 2005-ci ildə ailə həyatı quraraq Londona köçüb.

**57-ci "Eurovision" musabiqəsi 2012-ci ilin mayında Azərbaycanın paytaxtı Bakıda keçiriləcək. Olduqca sevindirici, fərəh doğuran bir hadisədir. Azərbaycan ifaçılarının bu zəfəri dünyaya səs saldı.**

Gənclərimizin qazandığı bu parlaq qələbə geniş rezonans doğurdu. Televiziyanın, mətbuatın diqqət mərkəzində dayandı. Bəlkə də, dünənəcən Azərbaycanı o qədər də əməlli-başlı tanımayanlar bu gün xəritədə ölkəmizi axtarırlar. Dünya mətbuatı Eldar Qasımovla Nigar Camalın qazandıqları bu mötəbər uğur barəsində məhəbbət və ehtiramla yazırlar.

Əslində, bu qələbə bütün türk dünyasına məxsusdur. İfaçılarımızın əllərində həm Türkiyənin, həm də Azərbaycanın bayraqlarının dalğalanması ürəklərimizi iftixar hissi ilə doldurdu, istər-istəməz ümummilli lider Heydər Əliyevin məşhur fikrini xatırladıq: "Biz iki dövlət, bir millətik". Bax, bu bir millət olmağın fəxarətidir ki, Türkiyənin əksər telekanalları və informasiya agentliklərinin aparıcı xəbər mövzusu məhz Azərbaycan təmsilçilərinin qələbəsi oldu.

"Hürriyyət", "Vətən", "Milliyyət" və digər nüfuzlu qəzetlərin internet saytlarında Azərbaycan gənclərinin qələbə anını əks etdirən videoçarxlar yerləşdirildi. Qəzetlərin birinci səhifələrindəki xə-

bərlər qaliblərimizlə bağlı oldu. Bu yazıların başlıqlarını oxuyarkən riqqətə gəlməyə blmirsən: "Eurovision"da qardaş təsəllisi", "Finala çıxa bilmədik, amma qazandıq", "Eurovision"da zəfər qardaş Azərbaycanın oldu", "Bir millət, iki dövlət olduğumuzu anladılar" və s.

Bu yazılarda Türkiyə ictimaiyyətinin Azərbaycanın qələbəsini öz uğuru və nailiyyəti kimi qiymətləndirdiyi əksini tapıb.

Fransa, Amerika, İsveç, Almaniya, Ukrayna, Belarus, Gürcüstan, Çin, İsrail, Latviya mətbuatında da Azərbaycanla bağlı maraqlı yazılar dərc edilməkdədir. Xüsusilə də Fransa mətbuatının aparıcı mövzularından biri məhz Eldar Qasımov və Nigar Camal duetidir. Bununla bağlı dəyərli materiallar dərc edilmişdir. Fransa mətbuatı Azərbaycanın belə möhtəşəm mahnı yarışmasında dördüncü dəfə iştirak etməsinə baxmayaraq, qibtə ediləcək dərəcədə böyük uğura imza atmasını xüsusi olaraq qiymətləndirmişdir.

Xarici ölkə başçıları Azərbaycan rəhbəri İlham Əliyevə telefonla zəng edərək azərbaycanlı ifaçıların bu beynəlxalq müsabiqədə qələbə qazanması münasibətilə təbriklərini çatdırmışlar. Dünyanın müxtəlif yerlərində yaşayan həmvətənlərimiz müsabiqənin nəticələri məlum olan gecə küçələrə çıxaraq dostluq, birlik haqqında mahnılar oxumuş, yerli sakinləri də bu sevinc dolu yürüşdə iştirak etməyə həvəsləndirmişlər.

Prezident İlham Əliyev mayın 17-də "Eurovision-2011" mahnı müsabiqəsində qazandıqları qələbəyə görə Eldar Qasımovun və Nigar Camalın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalamışdır.

**...Gələn il ölkəmiz qapılarını Avropaya açacaq. O qapılar elə açılmalıdır ki, avropalı müsabiqədə olduğu kimi silkələnsin, şoka düşsün. Biz yalnız musiqimizlə deyil, eyni zamanda qonaqpərvərliyimiz, mədəniyyətimiz, milli adətlərimiz, modern, müasir Azərbaycan cəmiyyəti ilə Avropanın qarşısına çıxmalıyıq. Bu görüş avropalılarda o qədər xoş təəssürat yaratmalıdır ki, buradan qayıdanda Azərbaycan adı onların yaddaşlarında əbədi olaraq mədəni, qədim tarixə malik, eyni zamanda müasir Avropa ölkəsi kimi qalsın...**

**Yaşar VƏLİYEV**

